**Səs.-**2024.-19 noyabr.-№211.-S.15.

**Əcnəbi ekspertlər: “Azərbaycan COP 29-da bəzi xarici dairələrin qara piarını iflasa uğratdı”**

Bakıda keçirilən COP29 sammitində 4 günlük gərgin iş nəticəsiz qalmadı- ekspertlər və jurnalistlər əldə olunmuş ilk razılaşmalardan məmnunluqla danışırlar. Xüsusilə, forum iştirakçıları qlobal “yaşıl” gündəliyin mühüm vəzifələrini, BMT-nin məqsədlərinə çatmaq üçün atılan addımları, qlobal temperatur artımının məhdudlaşdırılması üzrə Paris Sazişində təsbit olunmuş iqlim öhdəliklərinə sadiqliyini fəal şəkildə nümayiş etdirərək müzakirə ediblər. Ekspertlər hesab edir ki, bəzi xarici dairələrin Azərbaycana qarşı qara piar kampaniyası alınmadı.

Amerikalı və belaruslu ekspertlərin “Caliber” analitik mərkəzinə şərhlərini oxucularımıza təqdim edirik. **Amerikalı analitik, enerji, geosiyasət və təhlükəsizlik sahəsində ekspert, “The Washington Outsider” qəzetinin baş redaktoru İrina Tsukerman** qeyd edib ki, COP29 əvvəlki konfranslardan yaxşılığa doğru fərqlənir. Bu, ilk növbədə iqlim layihələrinin maliyyələşdirilməsinin müzakirəsi ilə bağlıdır.

“COP 29-da biz artıq 100 milyard dollar dəyərində iqlim dəyişikliyi proqramları üçün maliyyələşdirmə barədə razılığa gəlmişik və görürük ki, biz ölkələrin qəbul etmək niyyətində olduqları konkret maliyyələşdirmədən danışırıq. Yəni, mən şadam ki, müxtəlif ölkələrin təmsil olunduğu dünya birliyi buna bir neçə il əvvəlkindən qat-qat ciddi yanaşır. Bununla belə, bir daha qeyd etmək istəyirəm ki, əsas odur ki, maliyyələşmə prosesi başa çatsın. Çünki ABŞ-ın Afrikada iqlim layihələrinə geniş miqyaslı sponsorluq etdiyi zaman artıq belə presedentlər var, lakin bu pullar Afrika banklarında heç vaxt görünmədi.

Və burada çox mühüm cəhət bu proqramların həyata keçirilməsi üçün lazımi infrastrukturun yaradılması və ixtisaslı mütəxəssislərin hazırlanmasıdır. Çox vaxt ekoloji proqramları həyata keçirmək üçün peşəkar kadrların olmaması bu cür təşəbbüslərin uğursuzluğuna səbəb olur. Məsələn, Bayden administrasiyası dövründə müxtəlif iqlim təşəbbüslərinə başlamaq üçün böyük büdcə ayrıldı və məlum oldu ki, söhbət təkcə pul məsələsi deyil, kifayət qədər səlahiyyətə malik olmayan icmaların, əyalət rəhbərliyinin, bələdiyyələrin hazırlığıdır. Və bütün bunları həyata keçirmək üçün peşəkar resurslar çatışmır. Nəticədə ayrılmış pul praktiki olaraq boşa çıxdı”,- Zukerman bildirib.

Eyni zamanda, o bildirib ki, yaşıl enerjinin inkişafı ilə bağlı skeptisizmi Trampa aid etmək düzgün deyil.

“Tramp heç də yaşıl enerjinin əleyhinə deyil; o, bu sahədə hər hansı işgüzar və konstruktiv əməkdaşlığın tərəfdarıdır. Məsələ burasındadır ki, Trampın aid olduğu iş dünyasının bərpa olunan enerji mənbələrindən (BEM) istehsal olunan təmiz və ucuz enerjiyə ehtiyacı var, heç kim əlavə pul xərcləmək istəmir. Və Tramp yaxşı bilir ki, COP29 inkişaf üçün geniş imkanlar açır. Ancaq eyni zamanda, Tramp və komandasının əməl etdiyi bir sıra şərtlər var: onlar, məsələn, “yuxarıdan” ekoloji proqramların bir növ inzibati-əmr üsulu ilə məcburi icrasına qarşıdırlar. Çünki təcrübənin göstərdiyi kimi, belə proqramlar səmərəsizdir və işləmir. Tarixin bu anında Birləşmiş Ştatlar bundan ciddi şəkildə yanıb. Bu qəbildən olan layihələrə ayrılan böyük vəsaitlər düzgün istifadə olunmayıb, yanlış marketinq siyasəti ölkədə yalnız istehlak qiymətlərinin artmasına gətirib çıxarıb ki, bu da əslində Bayden administrasiyasının seçkilərdə uğursuzluğa düçar olmasına səbəb olub”, - deyə İ. Tsukerman bildirib.

**Belaruslu politoloq və ekoloq Sergey Tomits**in fikrincə, COP29-un uğurları göz qabağındadır və onlar iqlimin qorunması üçün səylərə düzəlişlər edəcəklər.

“Mənə elə gəlir ki, çoxlu sayda ölkədən olan iştirakçılar arasında mühüm konsensus əldə olunub və əgər əvvəlki sammitlərdə ciddi fikir ayrılığı var idisə, indi, məsələn, dünya Afrika ölkələrinin səsini çox aydın eşidib. Və Yaxın Şərq, Asiya dövlətləri, bu mövzuda öz nöqteyi-nəzərindən iqlim innovasiyası sahəsində işlərin necə aparılacağını başa düşür.

Biz başqa bir şey də gördük- bir çox paxıl insanlar və Azərbaycanın fəal təşəbbüslərinə və onun beynəlxalq nüfuzuna qarşı çıxanlar sammiti boykot etməyə çalışaraq qara piarla məşğul oldular ki, bu da özlüyündə absurd və axmaqdır. Allaha şükürlər olsun ki, bu cəhdlərdən heç nə alınmadı, onlar uğursuz alındı və Azərbaycan Prezidenti də COP29-da çıxışında bu məqamlara toxundu. Aydındır ki, dünya sammitdən yeni nəticələri maraqla gözləyir və görünür, Bakının hələ də ekoloqları və siyasətçiləri təəccübləndirəcək bir şeyi olacaq”,- S.Tomits bildirib.

**Tərcümə – Elçin Bayramlı**